# HÜRUFİLƏRİN DÖVLƏTÇİLİK GÖRÜŞLƏRİNƏ DAİR (XIV ƏSRİN SONLARI – XV ƏSRİN ƏVVƏLƏRİ)

YIL / YEAR 18, SAYI / ISSUE 36 / GÜZ / AUTUMN(2020/2) ss. 187 - 203
Makale geliş tarihi/Received: 10.11.2020-Makale kabul tarihi/Accepted: 16.12.2020

DİLAVƏR ƏZİMLİ
Doç. Dr., Azerbaycan Milli İlimler Akademisi
Abbasqulu Ağa Bakıxanov Tarih Enstitüsü
Bakü, Azerbaycan.
dilavar.azimli@gmail.com

MƏHƏMMƏD PURMUXTARİ
Azerbaycan Milli İlimler Akademisi
Abbasqulu Ağa Bakıxanov Tarih Enstitüsü
Bakü, Azerbaycan
mmuxtar@yahoo.com

**Özət**
Təqdim olunan məqalə hürufilərin siyasi baxışlarını əks etdirir. XIV əsrdə Şərqədə böyük siyasi qüvvəyə çevrilən hürufilər Tanrı sisteminə söykənən bir cəmiyyət qurmaq arzusundaydılar. Bu arzunu da dövrün siyasi liderləri ilə gerçəkləşdirmək mümkün idi. Fəzlullah Nəiminin o dövrün hakimləri, o cümlədən Əmir Teymura olan münasibətləri böyük maraq doğurur. Mənbələrdə onların dilindən dövlətqurma məsələsinə dair açıqlamalar olmasa da, fəaliyyətləri bunun onların məqsədlərindən biri olduğunu ortaya qoyur. Geniş bir türkman coğrafiyasına yayılan hürufilərin əsas istinad mərkəzi Azərbaycan idi. Onların söykəndiyi əsas dini ideoloji xətt Əhli-beyt idi. Mehdilik məsələsinə də bu yöndən izah vermək mümkündür. Quran ayələrinə söykənməklə Əhli-beyt yolunu davam etdirib ədalətə söykənən cəmiyyəti ortaya qoymağa cəhd edirdilər. Bu cür fəaliyyət Fəzlillah Nəiminin edamından sonra da davam etdirildi. Artıq bu dövr məhz İmadəddin Nəsimin adı ilə bağlıdır. Nəsimi bu dövrdə hürufilərin mürşidinə çevrildi. Ətrafında onun təqib etdiyi yol uğrunda canından keçməyə hazır olan minlərlə müridlər toplanmışdı. Nəsiminin fəaliyyətində siyasi çalarlar daha dolğun şəkildə özünü göstərirdi. Məqsəd hürufi arzularını gerşəklidirə biləcək dövlətdə yaşamaq idi. Onun bu fəaliyyəti də həyatı bahasına başa gəldi. Amma edamına din xadimləri fətva vermədilər. Çünki dinin təhrifinə dair hansısa məsələni ortaya qoya bilmədilər. Edamı siyasi məsələ idi. Məqalədə bütün bunlara aydıqnlıq gətirilir və hürufiliyin siaysi xətti daha çox araşdırılır.

**Açar sözlər:** Şərq, Azərbaycan, Əmir Teymur, Nəimi, Nəsimi, hürufi

**Hurufilerin Devletçilik [Devlet Kurma] Görüşlerine Dair (XIV. Yüzyıl Sonları-XV. Yüzyıl Başları)**

**Öz**
Sunulan makale Hurufiler'in siyasi görüşlerini yansıtmaktadır. XIV. yüzyılda Doğu'da büyük bir siyasi güç haline gelen Hurufiler, Tanrı sistemine dayalı bir toplum kurmayı hayal ediyorlardı. Bu arzuyu dönemin siyasi liderleriyle gerçekleştirmek mümkün idi. Fazlullah Naimi'nin o dönemin yöneticileriyle, özellikle de Emir Timur'la ilişkileri büyük bir ilgi odağıdır. Kaynaklarda Hurufiler'in devlet kurmaya amaçlandıklarını beyan ediliş-

lerine dair herhangi bir kanıtın bulunmamasına rağmen faaliyetleri aslında bu hedefe amaçlandıklarını ispat ediyor. Geniş bir Türkman coğrafyasına yayılan Hurufiler'in dayandığı esas merkez Azerbaycan idi. Onların güvendikleri temel dini ideolojik çizgi Ehl-i Beyt'ti. Mehdilik konusu da bu bağlamda açıklanabilir. Kuran ayetlerinden yola çıkarak Ehl-i Beyt yolunu takiben adalet ilkelerine dayalı bir toplum kurmaya çalıştılar. Bu tür faaliyetler Fazlullah Naimi'nin infazından sonra da devam etti. Bu dönem zaten Imadeddin Nesimi'nin adıyla bağlantılıdır. Bu dönemde Nesimi Hurufiler'in mürşidi oldu, etrafında izlediği yol uğruna ölmeye hazır binlerce mürit toplandı. Nesimi'nin faaliyetlerinde politik motivasyon daha yoğun şekilde temsil olundu. Amaç, Hurufiler'in hayallerinin gerçekleşeceği bir devlette yaşamaktı. Ne var ki, bu niyyeti hayatına bedel oldu. Lakin idamına dair fetvayı ülemalar veremediler, çünki dini meselelerin tahrif ettiğini kanıtlayacak herhangi bir tespit ortaya koyamadılar. İdam politik bir meseleydi. Makalede bu konular açıklığa kavuşturuyor ve Hurufiliyin siyasi çizgisi araştırılıyor.

***Anahtar Kelimeler:*** *Doğu, Azerbaycan, Emir Teymur, Neimi, Nesimi, hürufi*

CONCERNING THE STATISM [STATE-BUILDING] VIEWS OF THE HURUFI (LATE XIV. EARLY XV. CENTURIES)

**Abstract**

This article reflects the political views of the Hurufis. The Hurufis, which became a major political power in the East in the 14th century, were dreaming of establishing a society based on the Tengri (God) system. It was possible to realize this desire with the political leaders of the period. We are interested in these relations of Fazlullah Naimi with the rulers of that period, including Emir Timur. Although there is no evidence in the sources that Hurufis themselves exspressed their aim to establish a state, their activities prove that they were actually aimed at this goal. The main center on which the Hurufis spread over a wide Turkman geography was Azerbaijan. The main religious ideological line on which the Hurufis relied was belief in Ahl al-Bayt. The problem of Mahdi to be interpreted in the same context. Based on Quran's ayats and following the way of Ahl al-Bayt, they tried to establish a society based on the principles of justice. Such activities were conducted after the execution of Fazlullah Naimi as well. This period was already linked to the name of Imadaddin Nasimi. Nasimi became the murshid of the Hurufis in this period, and thousands of followers gathered around him being ready to die for the path he followed. Nasimi's activities had more political motivation. The goal was to establish a state where the Hurufis' dreams would come true. However, this aspiration cost him his life.  However, the ulama could not give a fatwa for his execution, because they could not reveal any evidence that religious problems were distorted by him. Execution was a political issue. The article explains these issues and explores the political line of Hurufism.

***Keywords****:* *East, Azerbaijan, Amir Teymur, Naimi, Nasimi, hurufi.*



## Giriş

Orta əsrlərdə Azərbaycan dövlətçiliyində təriqətlərin rolunun öyrənilməsi tarix elmində yeni bir mərhələ olmaqla, bu günki reallıqlar baxımından aktuallıq təşkil edir. İndiyə qədər bir o qədər də diqqətə alınmayan bu sahə orta əsrlər dövlətçilik məsələlərində ciddi rol oynamışdır. Sufizmin dövlətçilikdə iştirakı məsələsini izlədikdə bəlli olur ki, Şərq aləmində XI əsrdən başlayaraq sufilik birbaşa dövlətçilik məsələlərində iştirak etmişdir. XI əspdən başlayaraq sufizm rəsmi islamın ona qarşı qəddar və amansız mübarizəsinə baxmayaraq, bütün müsəlman aləminə yayılır. Məhz, bu dövrdə sufizm cəmiyyətin intellektual təbəqəsinin əhatəsindən çıxaraq xalq kütlələrinin ideologiyasına çevrilir (Triminqem, 1989: 4).

Elə buna görə də XI əsr İslam tarixində dönüş sayılır. Həmin dövrdə sufi şeyxlərinin və pirlərinin cəmiyyətdə nüfuzu çox yüksəlir. Onların nüfuzu sultanların nüfuzunu üstələyirdi. Səlcuqların ortaya çıxmasında da onların xüsusi rolu vardı. Onlara söykənən Səlcuqlar bundan istifadə edib xalqın etimadını qazanmağa çalışırdılar. Səlcuqlarda sufi şeyx və pirlərinə böyük hörmət göstərilirdi. Nəticədə artıq XII əsrdə sufi ordenlərinin rəhbərləri Səlcuqların ideoloji bazasına çevrildilər (Araslı, 1942: 18-19).

XIII əsr tarixdə böyük həyəcanlar və dəyişikliklər dövrü sayılır. Moğol orduları Mərkəzi Asiyada bir-birinin ardınca müsəlman dövlətlərini darmadağın edərək 1258-ci ildə Bağdadı tutdular. İnsanların çoxu bədbəxtliklərin baş verdiyi ərazilərdən sakit yerlərə qaçdılar. On dördüncü əsr türklər üçün böyük bir inkişaf və mədəniyyət dövrü idi. Abbasi xilafətinin (750-1258) ortadan qaldırılması ilə situasiya dəyişdi. Bu illərdə türklər Anadoluda, Rumelidə, Azərbaycanda, indiki İran ərazilərində, Qıpçaq yurdlarında, Xəzər dənizi sahillərində, Hindistandan Çinə qədər bütün ölkələrdə irəliləyirdilər. Türk orduları bir-birinin ardınca zəfərlər çalarkən, türk aydınları da geriliyi ortadan qaldırmaq üçün bütün qeyrətləri ilə çalışırdılar. Bu zaman dini aləmdə də geniş bir islahat gedirdi (Şakir, 1958: 14).



## I. Hürufiliyin meydana çıxması və siyasi iddiaları

Belə bir dövrdə hürufilər münbit şəraitdə fəaliyyətə başladılar. O zaman moğolların və teymurilərin apardıqları savaş və baş verən qarətçilik həddini aşmış, insan qırğını, tayfa müharibələrinin dəhşəti, insanların dözülməz istismarı geniş xalq kütlələrinin qəzəb alovunu şiddətləndirmişdi. Sərbədarlar üsyanı indiki İrana, Əfqanıstana, Orta Asiyaya, hürufilərin hərəkatının dalğaları isə Xorasandan tutmuş Kiçik Asiyaya qədər yayılmışdı. Hürufilərin içərisində isə Nəsimi sonuncu hərəkatın qüdrətli qələm bahadırlarından və qorxmaz mübarizlərindən idi (Nəsimi, 1973: 4).

Hürufilik Fəzlullah Nəimi tərəfindən XIV əsrin ikinci yarısında qurulmuş, hərflərin mistikasına əsaslanan batini bir təriqət idi. O, ərəb dilindəki 28 hərf və fars dilində bunlara əlavə edilmiş 4 hərf ilə rəqəmlər arasında ecazkar bir rabitə yaradaraq öz ideologiyasını formalaşdırmışdı (Aksu, 1998: 408-412; Şıxıyeva, 2019: 131-134). Varlıqlarda hərflərin izlərini axtaran hürufilər bu vasitə ilə həm də varlıqlarda Tanrının izini axtarırdılar. Yəni onlar öz varlıqlarında müşahidə etdikləri hərflərdə də, əslində, özlərində zühur edən Tanrını müşahidə edirdilər (Usluer, 2009: 201).

Hürufiliyin meydana çıxmasına toxunan İrene Melikoff yazır ki, "Hürufilik XIII-XIV və XV əsrlərdə Xorasanı və Orta Asiyayı qarışdıran və özünün əks olunmasıyla Anadoluya qədər gələn dinsal-sosyal etirazlar çərçivəsi içərisində özünə yer almışdır. XV yüzildə Şeyx Bədrəddin hərəkatı da eyni axın içərisindədir. Etirazlar daha sonra Cəlali üsyanları olaraq tanınan

uzun bir dövr hərəkat dalğasıyla Anadolunu əhatə edəcəkdir. Bütün bu etirazlarda eyni motiv görürük: sosial xüsusiyyətli utopiya; Tanrının insan surətində təcəllasına ortaq inanışı; və Mehdi inancı görünüşü altında xalq, ya da sənətkarların etirazları" (Melikoff, 1998: 167-168). Hürufilik bu etirazların ən kütləvisi idi.

Hürufilər ədalətə söykənən bir cəmiyyət qurmaq uğrunda mübarizəyə qoşuldular. Türk düşüncə sistemindən gələn bütün təriqətlərin mərkəzində yalnız ədalətə söykənən cəmiyyət qurmaq dayanır. Şərq dünyasını bütünlüklə əhatə edən hürufiliyin mərkəzi də Azərbaycan idi. Demək, Azərbaycan mərkəzli ədalətə söykənən bir cəmiyyət qurmaq hürufların əsas hədəflərindən biri idi. Bunun başlıca səbəblərindən biri də Azərbaycanda olan münbit şərait idi. Azərbaycan tarixən özünəməxsusluğu ilə seçilmişdir. Bu ərazilər Tanrıçılıqdan başlayaraq Manilik, Məzdəkilik, Zərdüştlük, Xristianlıq kimi dinlərin mərkəzinə çevrilmişdir. İslamın gəlişi ilə bu ərazilərdə yeni münasibətlər formalaşmış və Azərbaycan əraziləri Xorasandan sonra İslamda yaranan əksəriyyət təriqətlərin məkanına çevrilmişdir. İslamın gəlişindən sonra Azərbaycanda mövcud olmuş cərəyanlar sırasına Xürrəmilik, Hürufilik, Qızılbaşlıq da qoşulmuşdur. Bütün bu cərəyanların tədqiqi göstərir ki, onların əsas hədəfi Azərbaycan mərkəzli ədalətə söykənən cəmiyyət qurmaq məsələsi olmuşdur. Bu mənada Azərbaycanda Tanrıçılıq-Zərdüştlük-Manilik-Məzdəkilik-Xürrəmilik-Hürufilik-Qızılbaşlıq xəttini çox asanlıqla izləmək mümkündür. Sadaladığımız bu cərəyanların hər birinin məqsədi həm də siyasi idi, yəni hakimiyyət məsələsi də bu cərəyanların fəaliyyətində yer almışdır. Bu hərəkatlar həm eyni bir coğrafiyada yayılmış, həm də eyni məqsədlər uğrunda mübarizə aparmışlar. Bu hərəkatlar arasında ideoloji varislik də özünü göstərir. İdeoloji varislik zəncirini izləyən İ.P.Retruşevski D.S.Marqoliusa istinadən göstərir ki, məzdəkilərlə xürrəmilər arasında genetik qohumluqla bərabər, ideoloji varislik də var idi (Petruşevskiy,1970: 72). Xürrəmilərin də varisi kimi Qızılbaşlıq çıxış edirdi. Fəzlullah ibn Ruzbihan Xuncinin sözlərinə görə, XV əsrin II yarısında Qızılbaşlar arasında sosial bərabərlik barədə qədim Babəki ideyaları yayılmağa başlayır. Şeyx Heydər öz ardıcıllarına «ibahət» (şəriət tərəfindən qadağan olunanların qanuni sayılması barədə elm) və «Babəkin xürrəmiləri»nin qanunlarını öyrədirdi (Fazlullah, 1987: 9; Petruşevskiy, 1949: 82; Efendiev, 1961: 73; Petruşevskiy, 1966: 368). Bu məsələyə elə-belə toxunmadıq. Hürufilər də "Babəkin xürrəmiləri"nin qanunlarına söykənirdi. Bu məsələyə toxunan Həmid Araslı bunları yazır: "Hürufilər öz dini görüşlərində Azərbaycanın islamiyyətdən əvvəlki dininə, xürrəmiliyə əsaslanırdılar. Burada tənasux, yəni ruhun insandan-insana keçməsinə inanılır və hərflərdən, sirrlər ifadə edən simvol kimi istifadə olunurdu. Hürufilərin apardığı mübarizə asan bir iş deyildi. Bu mübarizə hünərli tərəfdarlar, cəsarətli fədailər tələb edirdi.

Az keçmədi ki, öz qələmi, cəsarəti və iradəsi ilə bu şərəfli işi görə biləcək bir sənətkar böyüdü. Bu məşhur şair Nəsimi idi. Əsərlərindən məlum olur ki, şair son dərəcə qüvvətli təhsil almış, Azərbaycan, fars və ərəb dillərini bu dillərdə bədii əsərlər yaradacaq dərəcədə geniş mənimsəmiş və təriqətlər tarixini mükəmməl tədqiq etmişdir. O, ilk illərdə Ərdəbildə təkyə təşkil edib şiəliyi (səfəviliyi-D.Ə.) təbliğ edən Səfiyəddin Ərdəbilinin dini fikirlərinin təsiri altında qalmışdır. Gənc yaşlarından istedadlı bir şair olaraq parlayan İmadəddin bu illərdə "Hüseyni" təxəllüsü ilə şiə ideyaları təbliğ edən şeirlər yaratmışdır. Öz fikirlərini yaymaq məqsədi ilə Bakıya gələn Fəzlullah ilə şəxsən görüşür və hürufilik təriqətini qəbul etmiş olur. O, Fərzlullahı bir mürşid olaraq qəbul edib, bütün ömrü boyu ona sadiq qalmış, onun ən yaxşı şagirdi olaraq tanınmışdır. Hətta öz köhnə təxəllüsünü də dəyişmiş, Fəzlullahın təxəllüsü (Nəimi) ilə ahəngdar olmaq üçün Nəsimi təxəllüsünü işlətməyə başlamış və bu adla məşhur olmuşdur" (Araslı, 1942: 5-8). Göründüyü kimi, Xürrəmilikdən Hürufiliyə bir ideoloji uzantı özünü göstərir. Hürufiliyin siyasi təşkilat kimi fəaliyyətini sübut edən elə Fəzlullah Nəiminin həm də siyasi yöndə apardığı mücadilədir. Biz də bu ideoloji varsiliyi xürrəmilərdən sonra hürufiliyə, bunun ardınca da Qızılbaşlığa qədər izləyə bildik.

Hürufilikdə siyasi məqsədi izləmək üçün Nəiminin mücadiləsini diqqətlə izləmək yetərlidir. Zümrüd Quluzadə yazır ki, Fəzl haqqında ilkin məlumatları biz Makrizidə tapırıq. Fəzli edam edəndə Makrizinin 30 yaşı olubdur. Makrizi göstərir ki, Fəzlullah Əbül-Fəzl əl-Astrabadinin adı Əbdürrəhman idi. O, əhatəli biliyə malik idi. Yaxı şeir və nəsr ustası idi. Quranda təsvir olunan Allahın qoyduğu qaydalara uyğun gəlməyən qaydalara və qadağan olunanlara icazə verməklə onlar (hürufilər-D.Ə.) cağatayların böyük əksəriyyətinin və başqa qeyri-ərəblərin inancını darmadağın etdilər (Kuli-zade, 1970: 89). O dövrün başqa bir müəllifi olan Şəmsəddin Muhəmməd ibn Əbdürrəhman Süxəvi (XV əsr) də yazır ki, hürufilik geniş yayılmışdı, öz bidəti ilə çoxlu sayda çağatayları və qeyri-ərəb xalqlarını zəhərləmişdi (Kuli-zade, 1970: 90). O dövr üzrə mənbələrdə məlumatlar var ki, təbrizli Fəzlullah Nəimi Şərqin bir çox şəhərlərini gəzərək hürufilik təlimini təbliğ edir və gizli hürufi təşkilatları yaradırdı. Bu dövrdə hürufiliyin mərkəzi hesab olunan Bakıda da çoxlu hürufi birlikləri var idi (Ağalarlı, 2017: 96). Bu da Fəzlin yaratdığı sistemin yaranan şəraitdən uğurla bəhrələnməyin nəticəsi idi. Buna görə də Fəzl elə bir dövrdə meydana çıxır ki, artıq özünün böyük uğur qazanacağına inanırdı. Nəimi öz məqsədini həyata keçirmək üçün təbii ki, Azərbaycanı mərkəz seçməliydi. Bununla bağlı o, "Kürsinamə" əsərində zatını Təbrizdə kəşf etdiyini və vəhdətin Günəşinin Azərbaycanda göründüyünü qeyd edir (Kuli-zade, 1970: 93). Bu məsələyə toxunan İrene Melikoff da bunları yazır: "Əski çağlardan indiki İran əraziləri dini toxumlara yayılma zəmini olmuş və Fəzlullah Nəimidə bir

çox bu toxumlarla birlikdə, IX yüzildə Azərbaycanda mövcud olan Babək-əl Xürrəmi hərəkatının düşüncələrinə rastlaşırıq. IX yüzildə bu hərakatın doğuşunu ortaya qoyan "Sönməyən Atəşin Ölkəsi" olan Azərbaycan bu dəfə də "Əlifba" hərflərinin tanrısallaşmasına dayanan, Tövrat yorumları gələnəyinə bağlı Hürufilik cərəyanının beşiyi oldu" (Melikoff, 1993: 183). Bu fikirlərə münasibət bildirən Doktor Yəqub Ajəndi "Hurufiyye dər tarix" əsərində qeyd edir ki, "faktlar onu göstərir ki, Təbriz şəhəri və ümumiyyətlə, Azərbaycan ərazisi hurufilər üçün müqəddəs və dirçəliş yurdudur, ona görə ki, Seyid Fəzl ilk olaraq 778 h.q. (1376/1377) ilində Təbrizin Kuyi məhəlləsində öz məzhəb və təriqətini aşkar etdi" (Doktor Yəqub, 1369: 101).

Hürufiliyin vətəninin Azərbaycan olması məsələsi Xeyirbəy Qasımovun "Orta əsrlərdə Azərbaycan mədəniyyəti" monoqrafiyasında da əksini tapmışdır. O, qeyd edir ki, "XIII-XIV əsrlərdə bir sıra fəlsəfi-dini təlimlər meydana çıxdı və tezliklə geniş əhali kütlələrini özünə cəlb edərək mənəvi qüvvədən maddi qüvvəyə çevrilməyə başladı. Təbiidir ki, həmin təlimlər təsadüfən və birdən meydana gəlməmiş, əski mütərəqqi baxışlar əsasında formalaşmışdı. Hürufilik bu təlimlər əsasında formalaşmşdı. XIV əsrin sonlarından geniş yayılmağa başlamış hürufiliyin vətəni Azərbaycan idi. Təlimin banisi və hərəkatın ilk rəhbəri Fəzlullah Nəimi (1339/40-1394) 1387-ci ildə ilk dəfə olaraq Azərbaycanda yeni cərəyanın başlıca müddəalarını bəyan etdi. Məhz buna görə də hürufilər Azərbaycanı "sərzəmini-rəstaxiz" ("oyanmış torpaq") adlandırırdılar" (Qasımov, 2008: 174).



Qeyd edək ki, İrene Melikoff kimi dəyərli tədqiqatçı hürufilikdə hərflərin müqəddəsləşməsini Tövrata bağlayır. Amma qeyd edək ki, hərflərin və rəqəmlərin tanrısallaşdırılması tarixi daha dərin köklərə malikdir və Tanrıçılıqda da özünə yer almışdır. Elə Tanrıçılıqdan da Tövrata keçmişdir.

Mənbə məlumatları sübut edir ki, Nəimi hürufilik təlimini təkcə əhalinin aşağı təbəqələri arasında deyil, həmçinin iqtidar sahibləri arasında da yaymaq üçün siyasi dayaqlar axtarmağa başlamışdı (Araslı, 1998: 252). Məlumatlardan aydın olur ki, Fəzlullah Nəimi bu məqsədlə dövrün bir çox hökmdarları ilə əlaqə qurmağa çalışmışdır. Onun Toxtamış xanı və Əmir Teymuru da hürufiliyə cəlb etmək səyləri barədə məlumatlar vardır. Bu barədə Fəzlullah Nəiminin müasiri İbn Xədcar Əskəlani yazırdı: "Əbu Məhəmməd Təbrizinin oğlu Fəzlullah bidətçilərdən biri olmaqla, özünün təriqətini yaratdı, təbliğ etdiyi saxta təlimi əsasında hürufilər təşkilatını qurdu. O, Teymuru da öz küfrünə cəlb etmək istəyirdi, amma o, razılaşmadı və onun edam edilməsi barədə əmr verdi. Fəzli Teymurun oğlu Miranşah edam etdi" (Kuli-zade, 1970: 90). Nəimi ilə Əmir Teymuru yaxınlaşdıran həm də Əmir Teymurun sufiliyə müsbət münasibətiydi. O, həm də bu məsələdən istifadə edib özünün siyasi məqsədlərini həyat keçirmək istəyirdi. Bu məsələyə geniş toxunan Səadət Şıxıyeva mənbə materialları-

na istinad edərək aydınlıq gətirir. O, yazır ki, "Hürufiliyin ilk illərdə, daha doğrusu, Fəzlullahın sağlığındakı fəaliyyətinin özəlliklərinin nəzərə alınmaması və hürufi-Teymuri münasibətlərinin kəskin ixtilafa çevrilməsinin səbəblərinin təfərrüatlarının araşdırılmaması hürufiliyin anti-Teymuri, hətta ümumiyyətlə, antifeodal hərəkat olması iddiasına yol acmışdır. Halbuki ilkin hürufilik mətnləri əsasında bu təriqətin banisi Fəzlullahın siyasət adamları ilə münasibətinin izlənməsi hürufiliyin antifeodal xarakterliliyi ilə bağlı mülahizələrin tarixi gerçəkliyə uyğun olmadığı qənaətinə gətirir. Nəsrullah Nafəci *"Xabnamə"*sində ümumi şəkildə üləma və sərvət sahiblərinin Fəzlullahla həmsöhbət olduğunu, onun xidmətində durduğunu və taxt sahiblərinin hürufi mürşidinin etimadını qazandığını bildirir. Seyid İshaqın *"Məhrəmnamə"*sindən məlum olduğu kimi, Həsən Damğaninin oğlu, bir müddət Xorasan valisi və Sultan Üveys Cəlayirinin yaxınlarından olan Əmir Əli Damğani sonralar xidməti tərk edərək, Fəzlullahın müridi olmuşdu. Nəsrullah Nafəci İsfahanda Tuğçi məscidində ikən Fəzlullahın yanına din alimləri (*"uləma"*), seyidlər (*"sadat"*), böyüklər (*"əkabir"*), əmirlər, vəzirlər və qazılardan bir çox insanın gələrək röya təbir etdirdiklərini bildirir. Nəsrullah Nafəcinin *"Xabnamə"*sində həmin sosial zümrələrə aid şəxslərin röyalarını ehtiva edən örnəklər olmasa da, Seyid İshaq və Firiştəoğlunun eyni adlı əsərlərində həmin şəxslərin röyalarından örnəklər verilmişdir: Səbzəvarın hakimi Xacə Fəzlullah, Timurun əmiri, Kaverd qalası valisi Əmir Bistam, Sultan Üveysin vəziri Əmir Zəkəriyya, Şirvan valisi Əmir Şeyx İbrahim, Qazı Bayəzid Şamaxı, Əmirzadə Məhəmməd Qəndəhari, Məşhəd naqibi Seyid Əbdülheyy, Səbzəvar valisi Xacə Cəmaləddin, İsfahanda mühtəsib, Sultan Əhmədin qaynı Cəllad Xan Rumi, Teymurun cariyəsi, İraq üləmasının öndə olanlarından Dərviş Rəis Xacə Sədrəddin (Mövlana Sədrəddin Türkih), Təbriz üləması böyüklərindən Mövlana İzəddin Halvayi və başqaları. Ə.Gölpınarlı ilkin hürufilik qaynaqlarına istinadən Sultan Üveysin Fəzlullahın məclislərində iştirakından, eləcə də hürufi mürşidinin ona təbərrük olaraq dərviş külahı verməsindən də bəhs edir. Bu faktlar, göründüyü kimi, Fəzlullahın siyasi çevrələr və saray mühitində nüfuza malik olduğunun inkarolunmaz göstəriciləridir. Fəzlullahın öz əsərlərinin də bu baxımdan araşdırılması maraq doğuran nəticələrə gətirdi. Belə ki, *"Növmnamə"*də yer alan bir yuxusunun nəqlində Fəzlullah Əmir Teymurun onlarla birlikdə namaz qıldığını, yəni dolayısı ilə hürufilərlə həmfikir olduğunu bildirir. Bu yuxu hürufi mürşidinin o cahangirin himayəsinə ümidinin ifadəçisidir: *(Əmir Teymurla namaz qıldım, onunla namaz keçirdim, onun xalısını dərvişlər üçün açdım).* Tədqiqat əsərlərində, adətən, Fəzlullahın Əmir Teymuru təliminə dəvəti ilə onun edamına fərman verilməsi yaxın zamanlı hadisələr olaraq təqdim edildiyindən ciddi təhriflərə yol açmışdır. Halbuki bu hadisələr arasında Fəzlullahın Şirvana mühacirəti baş vermişdi və buranın seçimi təsadüf nəticəsi deyildi. Əliyyül-Əlanın *"Kürsinamə"*sindən

məlum olduğu kimi, onlar novruz bayramı günlərində Miranşahla ittifaq bağlamağa nail olmuş və Şirvana getməyə razılıq almışdılar. Hürufiliyin tarixçisi adlandıra biləcəyimiz Əliyyül-Əlanın *“Kürsinamə”*sində yer alan yuxarıdakı beytlərin məzmunundan bəlli olur ki, ailəsi və özünə yaxın insanlar, xəlifələr və ardıcılları ilə Şirvana gələn Fəzlullah Miranşahdan himayə vədi almış və bu, hürufilərin böyük sevincinə səbəb olmuşdu. Amma Miranşah sonra sözündən dönmüş və onlara xəyanət etmişdi. Yuxarıdakı misralar Teymuri-hürufi münasibətlərinə işıq salmaqla bərabər, həm də Fəzlullahın Teymurilərin siyasi nüfuz dairəsinə daxil olan Bakıya-Şirvana hansı ümidlərlə gəlməsinə bir aydınlıq gətirir” (Şıxıyeva, 2018: 70-75).

Fəzlullahın Əmir Teymuru yuxuda görməsi əslində onun öz inancını yaymaq üçün çağının ən güclü hökmdarını seçməsinə canlı misaldır. Bu məsələyə toxunan hürufi olmayan tarixçi İbn Hacər əl-Əskalanin də bildirdiyinə görə, Fəzlullah gördüyü bir yuxu üzərinə Teymuru hürufilik yolunu mənimsəməyə çağırmışdı. O, qeyd edir ki, hürufi qaynaqlarında Fəzlullahın Teymurla bağlantı qurduğuna dair bir bilgi yoxdur. Yalnızca Cavidannamədə sözü gedən bir röyasında özünü Teymurun hüzurunda dua edərkən görmüşdü. Fəzlullah başqa bir röyasında da Qızıl Orda hökmdarı Toxtamış xanın qızıyla evləndiyini görmüşdü (Tecimer, 2008: 22-23). Bəzi araşdırıcılar tərəfindən ortaya belə bir versiya da atılıb ki, Fəzlullah Əmir Teymurun təqibindən xilas olmaq üçün Şirvanı seçmişdir. Bu məsələnin doğru olmadığına diqqət yetirən S.Şıxıyeva daha sonra yazır ki, “Fəzlullahın Teymurilərdən qorunmaq niyyəti olsaydı, Əmir Teymurun yaxın müttəfiqi Şirvanşah Şeyx İbrahimin ölkəsinə gəlməz, bu xanədana rəğbət bəsləməyən Misir hökmdarı Sultan Fərəcə, yaxud Teymurilərin açıq düşməni İldırım Bayəzidin himayəsinə də sığına bilərdi. Fəzlullahın Bakıya mühacirəti, sonralar müridlərinin etdiyi kimi, Şam və Anadoluya köç etməməsi də hürufi mürşidinin Teymurilərdən himayə alacağına ümid etdiyini göstərir” (Şıxıyeva, 2018: 76-77). S.Şıxıyevanın qənaəti daha düzgündür. Əslində, Nəimi Şirvanı seçərkən məqsədinin buradan daha asan həyata keçəcəyinə ümid bəsləyirdi.

Amma onun məqsədi həyata keçmədi və Əmir Teymurun oğlu Miranşahın əmriylə həbs edilərək Naxçıvandakı Əlincə qalasına götürüldü. Şirvanşah Şeyx İbrahimin qazısının fətvasıyla 02 sentyabr 1394-cü ildə (6 Zülqədər 796) boynu vurularaq öldürüldü. Dövrü üçün hürufilər böyük bir gücə çevrilmişdilər. Onların siyasi hakimiyyətə iddiaları haqqında mülahizə yürütmək üçün həmin dövrdə yayıldıqları coğrafiyanı və bu coğrafiyada həyata keçirdikləri üsyanları gözdən keçirmək kifayətdir. Bu coğrafiyada söz sahibi olub, öz istədikləri cəmiyyəti qurmaq üçün həmin coğrafiyada olan dövlətlərin hökmdarları ilə danışıqlara gedirlər. Fəzlullahın siyasi dəstək üçün Teymurilər dövlətinə müraciəti, yaxın çevrəsindən Fəxrəddini Saraya-Toxtamış xanın yanına danışıq aparmaq üçün göndərməsi, Əliyyül-

Əlanın Qaraqoyunlu Qara Yusiflə, Nəsiminin Zülqədər bəyləri ilə ittifaqı belə düşünməyə əsas verir (Şıxıyeva, 1998: 129).

Fəzlullah Nəiminin qətlə yetirilməsindən sonra hürufilərin fəaliyyətində siyasi çalarlar daha da güclənməyə başlamış və bu səbəbdən hürufilər Əmir Teymura qarşı siyasi mübarizəyə başlamışlar. Nəiminin qətlə yetirilməsindən sonra hürufilərin Anadoluya kütləvi mühacirəti zamanı Əbülhəsən Əlyyül-Əla Əmir Teymurun qatı düşməni olan Qaraqoyunlu Qara Yusifi hürufi təliminə dəvət etmiş, həmçinin teymurilərə qarşı ciddi şəkildə mübarizə aparan Qaraqoyunlu bəyinin siyasi mövqeyini müdafiə edərək, mürşidləri Fəzlullahın qisasını almaq üçün ona kömək göstərmişlər (Ağalarlı, 2017: 96). Fəzlullahın qətlindən sonra hürufilərin siyasi həyatının ikinci mərhələsi başlayır. Bu mərhələnin başlıca qəhrəmanları sırasında iki şəxsin adı xüsusilə seçilir. Bunlar Əlyyül-Əla və İmadəddin Nəsimidir. Əlyyül-Əla Fəzlullahın Azərbaycanda ən yaxın müridlərindən biri olmaqla, həm də hürufiliyin öndə gedən ən böyük nümayəndələrindən idi. Təriqətin inkişafında müstəsna dərəcədə rol oynayan Əlyyül-Əla onun Yaxın Şərqdə də yayılmasında böyük rol oynamışdır. Zümrüd Quluzadə yazır ki, "Hürufiliyin Türkiyə və Orta Asiya ərazilərində yayılmasında Əlyyül-Əlanın rolu mənbələrdə öz geniş əksini tapmışdır. Fəzlin ölümündən sonra Əlyyül-Əla bəktaşı təkyələrində çox gizli şəkildə Fəzlin təlimini yayırdı" (Kuli-zade, 1970: 197-198).



## II. Hürufilikdə Nəsimi mərhələsi və siyasi fəaliyyətin daha da güclənməsi

Fəzlullah Nəiminin öldürülməsindən sonra hürufiliyin yayılmasının əsas ağırlığı İmadəddin Nəsiminin üzərinə düşdü. Məhz istedadlı bir şair olan Nəsiminin poeziyası sayəsində bu təlim daha geniş coğrafiyaya yayıldı. Belə ki, mütəxəssislər hürufiliyin türk dünyasında daha çox populyarlıq qazanmasını Nəsiminin yüksək bədiiliklə yazılmış təbliği-didaktik xarakterli şeirlərindəki söz sənətinin təsir gücü ilə izah edirlər (Şıxıyeva, 2019: 52).

Nəsiminin əsərlərindən bəlli olur ki, o, Yaxın Şərqin görkəmli təriqət alimlərinin bədii əsərlərini çox mütaliə etmişdir. Azərbaycan şairləri ilə birlikdə həm də ərəb, fars və tacik yazıçılarının da əsərlərinə yaxından bələd olmuşdur. Onun şeirlərində Sədinin, Fəridəddin Əttarın adı ilə yanaşı İbn Sina, Mühiyəddin Ərəbi, Şibli, Kərxi kimi Şərqin məşhur filosof, alim və şairlərinin də adı çəkilir. Həmid Araslının qənaətincə, Nəsimi o dövrdə çox güman ki, Səfəvilər sülaləsinin banisi və o zaman Ərdəbildə böyük şöhrət qazanmış Səfiəddinin və onun oğlu Sədrəddinin əsərləri ilə yaxından tanış imiş (Araslı, 1972: 7-8). Göründüyü kimi Nəsimi Nəimi ilə görüşənə qədər böyük bir sufi məktəbi keçmişdir. O dövrə aid mənbələrdən aydın

olur ki, həmin illərdə Bakı hürufiliyin mərkəzinə çevrimişdir. Nəiminin bir sıra tərəfdarları Bakıda gizli hürufi təşkilatında çalışır və buradan Şərqin müxtəlif ölkələrinə hürufi görüşləri yaymaq üçün təbliğatçılar göndərirdilər. Bu zaman Nəsimi də Fəzlullah Nəiminin fikirləri ilə tanış olur, onunla görüşür, fikirlərini qəbul edir və ona hörmətən şeirlərini Nəsimi təxəllüsü ilə yazmağa başlayır (Araslı, 1972: 10).

Nəsimini siyasi fəaliyyətində Şərqi Anadolu və Suriya əraziləri xüsusi yer tuturdu. Bu gün tədiqatçılar arasında hürufilərin ilk olaraq Anadoluya, Bağdada, yoxsa Suriyaya üz tutduqları haqda yekdil fikir yoxdur. Bu dövrün müasir dövrdə ən dərin araşdırıcılarından sayılan Səadət Şıxıyeva hesab edir ki, o zaman Nəsimi ilk olaraq Suriyaya üz tutmuşdur: "Hürufilik təriqətinin yaradıcısı Fəzlullahın edam edilməsindən sonra Nəsiminin bu təlimi təbliğ etmək üçün hansı ölkəyə üz tutması ilə bağlı araşdırmalarda fikir ayrılıqları vardır. Araşdırıcıların böyük əksəriyyətinə görə, o, hürufilərin kütləvi mühacirəti zamanı Anadoluya köçmüş, oradan da Bağdad və daha sonra Hələbə getmişdir. Bir qism tədqiqatçıya görə isə, onun bu sadalanan səfərləri əks-sırada - əvvəlcə Bağdada, sonra Anadolu, oradan da Hələbə olmuşdur. Bu ziddiyyətli məqama şairin məsləkdaşı və dostu Əliyyül-Əlanın söylədikləri tam aydınlıq gətirir: *"Yaradanın* (mətndə: *"kirdiqar"*; Fəzlullah nəzərdə tutulur) *kitabını **Rum**a mən **Şam**dan göndərdim, buna diqqət yetir* (hərfən: yaxşı bil)" ( Şıxıyeva, https://olaylar.az/news/). Bu məsələni o dövrün mənbələri əsasında araşdıran S.Şıxıyeva daha sonra qeyd edir ki, "Əliyyül-Əlanın söylədiyi bu beyt hürufilərin əvvəlcə Şama, oradan Ruma üz tutduğunu açıqlayır və Fəzlullahın ölümündən sonra Əliyyül-Əlanın başçılığı ilə hürufilərin böyük əksəriyyətinin Türkiyəyə mühacirət etməsi barədəki ənənəvi mülahizənin yanlışlığını göstərir. Nəsimi də hürufilik əqidəsinə uyğun olaraq, təbliğatçılıq fəaliyyətində Şama çox əhəmiyyət vermişdir. Onun bir hürufi kimi bütün fəaliyyəti boyu Əliyyül-Əla ilə birgə olduğunu və dostluq münasibətlərinin ömürlərinin sonunadək davam etməsini nəzərə aldıqda Fəzlullahın ölümündən sonra Şama mühacirət edən hürufilər arasında onun da olduğunu təxmin etmək olur. Şairin özü də Şama səfərini bəzi beytlərində dilə gətirmişdir" (Şıxıyeva, https://olaylar.az/news/). Niyə məhz Şama? S.Şıxıyevanın fikrincə, Nəsiminin Bağdada səfəri Sultan Əhməd Cəlayirlinin hakimiyyəti illərinə düşə bilərdi. Bəllidir ki, Sultan Əhməd Cəlayirli ilk zamanlarda Azərbaycan Qaraqoyunulu dövlətinin yaradıcısı Qara Yusiflə müttəfiqdi, Əmir Teymurun da düşməni idi. Bu da imkan verirdi ki, hürufilər onunla da ciddi əlaqələr yaratsınlar. Bu mənada S.Şıxıyevanın gəldiyi nəticələr o dövrün reallıqlarını əks etdirir: "Hürufilər Fəzlullahın sağlığından etibarən siyasi himayədar axtarırdılar. Bu hami axtarışında Əmir Teymurla düşmənçilik, Qara Yusiflə dostluq münasibətində olan Sultan Əhməd Cəlayir də yer ala bilərdi. Çünki bu hökmdarın atası Sultan Üveysin və onun sarayının

bir sıra əyanlarının Fəzlullahın məclislərinin iştirakçısı olması barədə hürufi mətnlərində məlumat verilir" (Şıxıyeva, https://olaylar.az/news/). Tədqiqatçı fikirlərini daha əsaslandırmaq üçün Y.C.Pəndariyə və H.Rittərə də istinad edir. Bu faktlardan çıxış edən tədqiqatçı Nəsiminin Sultan Əhmədlə görüşünün mümkünlüyünü təsdiq edir. Hesab edirik ki, müəllif bu qənaətlərində haqlıdır. Unutmayaq ki, o zaman Bağdad hürufilər üçün əlverişli bir yer idi. Çünki Bağdad taxtında oturan Sultan Əhmədin Əmir Teymurla münasibətləri olduqca pis idi. Hürufilər də siyasi məqsədlərini həyata keçirmək üçün özlərinə etibarlı himayədarlar axatrırdılar. Onu da unutmayaq ki, Suriya, İraq və Anadolu o zaman Türkman tayfalarının sıx yaşadıqları yerlər idi və bu yerlərdə hürufilik və ona yaxın təriqətlərin çoxlu sayda tərəfdarları var idi. Əslində, bu dövr hürufiliyin geniş coğrafiyada daha çox yayıldıqları dövrdür. Təriqət daha çox da türkmanlar arasında yayğın idi. Təriqətin mərkəzi isə Azərbaycan idi. Nəsimi çox yaxşı bilirdi ki, Azərbaycan əraziləri İran ərazilərindən ideoloji baxımından fərqlənir. Azərbaycan ərazilərində dini münasibətlər Tək Tanrıya inancdan qaynaqlanmaqla Tanrıçılığa söykənirdi. Bu da onların İslam dinini könüllü qəbul etməsində mühüm rol oynamışdı. Burada İnsan-Tanrı münasibətləri Türklərin qədimdən gələn kainat haqqında dünyagörüşlərinə söykənirdi. Beləliklə də, burada İslam dini Tanrıçılıq münasibətləri vəhdət təşkil edirdi. Bu baxımdan Azərbaycanda həmişə Məhəmməd peyğəmbər (s.ə.v.) və onun Əhli-beyt (ə)nə böyük sayğı olmuşdur. Bunu Azərbaycan ərazilərinə pənah gətirən və burada uyuyan İslam peyğəmbərinin ailə şəcərəsinə məxsus olan insanların türbələri də sübut edir. Türkman dünyagörüşü İslam dünyagörüşü ilə üst-üstə düşürdü. Elmi ədəbiyyatda yanlış olaraq bizim İslami münaisbətləri də heterodoks İslam adlandırıblar. Əslində, İslam Tək Tanrıya hizmət etmək deməkdir. Türklər tarix boyu Tək Tanrıya hizmət etmiş və Tanrıçılıq dünyagörüşünə sahib olmuşlar.

Nəsiminin Şərqi Anadoluda fəaliyyət məsələsinə toxunanda bir məsələni də diqqətdən qaçırmayaq ki, bu ərazilər o zaman Azərbaycanın ucqar əraziləri olmaqla, türkmanların daha sərbəst yaşadıqları bölgə idi. Bu mənada Nəsimi burada daha sərbəst fəaliyyət göstərməyin mümkün olacağını güman edirdi. Həm də Şərqi Anadolu digər ərazilərə nisbətən təriqətlər üçün ən münasib yer idi. Sonradan Şah İsmayıl Xətayi də öz fəaliyyətini gücləndirmək üçün Şərqi Anadoluya üz tutacaqdı. Şərqi Anadolu böyük sufi mürşidlərinin yaşadıqları ərazi idi. Hürufilik Bəkataşilik münasibətlərinin iç-içə olmasını düşünsək, Nəsiminin Şərqi Anadoluda öz siyasi məqsədlərinə nail olmaq üçün daha sərbəst fəaliyyət göstərməsinə haqq qazandıra bilərik. Beləliklə də, bunları gözardına alan Nəsimi Zülqədərli Əli bəy, onun qardaşı Nəsirəddin bəy və Ağqyounlu Osman bəylə münasibət yaradaraq, türkmanların siyasi nüfuzunun böyük olduğu Şərqi Anadoluda və Suriya ərazisində özünün dini və siyasi dayaq-

larını möhkəmləndirməyə çalışırdı (Araslı, 1998: 253). Nəsiminin siyasi fəaliyyətinə nəzər salanda bəlli olur ki, onun başlıca amalı sufi dəyərlərinə söykənən bir dövləti yaradılması idi. Bu yolda hansı çətinliklərdən keçəcəyini və hətta qətlə yetirilə biləcəyini belə gözardına almışdı. Onun söykəndiyi şəxsiyyət əqidəsi yolunda əzablı qətlə məhkum olunmuş bağdadlı Həllac Mənsur idi.  Bu məsələyə H.Araslı eyni mövqedən yanaşır. Yazır ki, "Mənbələrdən bəlli olur ki, şairin ölümü dövrün siyasi hadisələri ilə də yaxından bağlıdır. Bəllidir ki, Misir sultanı öz fərmanında Nəsimin dərisi soyulduqdan sonra əllərinin birinin Zülqədər hakiminə, ikincisini Ağqoyunlu hökmdarına göndərmişdi. Bu fakt şairin siyasi əlaqələrini təxmin etməyə imkan verir. Bəlkə də Nəsimi Zülqədər hakiminə öz fikirlərini qəbul etdirmək şərtilə Հələbi və Suriyanı Misir sultanlığından ayırıb onun ərazisinə birləşdirməyi vəd etmişdi. Bu ehtimal Nəsiminin öldürülməsinin siyasi bir mahiyyət daşımasını güman etmək üçün də əsas vermiş olur" (Araslı, 1972: 40). Hələb və Suriyanın Zülqədər bəyliyinə birləşdirmə məsələsi doğrudan da siyasi məsələ idi. Söhbət Türkman bir dövlətdən gedir. Bu həm də Türkmanların Misir Məmlük dövlətinə münasibətindən irəli gəlirdi. Onlar Misir Məmlük dövlətinə Türkman dövləti gözü ilə baxmırdılar. O zaman Ağqoyunlu bəyliyi ilə Misir Məmlük dövləti arasında ziddiyyətlər var idi. Nəsiminin Zülqədərli Əli bəy, onun qardaşı Nəsirəddin bəy və Ağqyounlu Osman bəylə münasibət yaratmasının kökündə də Türkman məsələsi və Azərbaycan ərazilərində hürufilərin sahiblənə biləcəkləri dövlət yaratmaq istəyi dayanırdı. Hürufilər Hələb və Suriyada çox güclü bir təşkilata çevrilmişdilər. Onlar Misir Məmlük dövləti üçün ciddi rəqib idilər. Zülqədərlər Misir Məmlük sultanı əl-Malik əl-Müəyyəd Şeyx əl-Mahmudini devirib onun yerinə öz adamları olan bir türkmanı gətirməyi planlaşdırırdılar. Bu məsələdə hürufilərdən yararlanmaq istəyirdilər. Demək, hürufilərlə onların məqsədləri üst-üstə düşürdü. O zaman bu ərazilərdə, ümumiyyətlə Yaxın Şərqdə əhali arasında Nəsiminin nüfuzu çox yüksək idi. O, istədiyi zamanda əhalini sultana qarşı qaldıra bilərdi. Beləliklə, Nəsiminin Zülqədərlərlə yaranan ittifaqı Məmlük sultanı üçün ciddi təhlükə idi. Onu da əlavə edək ki, Nəsimi öz qızını Zülqədərli Əli bəyin qardaşı Nəsirəddin bəyə ərə vermişdi. Bu faktı ortaya çıxaran o dövrün araşdırıcısı S.Şıxıyevanın fikrincə, baş verən qohumluq onları daha da yaxınlaşdırmışdı. Beləliklə də, hürufilərin Məmlük dövlətinin siyasi tabeliyində olan Suriya ərazisindəki dini və siyasi fəaliyyətinin güclənməsi Məmlük hakimiyyətini ciddi şəkildə narahat edirdi. Çünki bu dövrdə hürufilər türkmanların Misir sultanı əl-Malik əl-Müəyyəd Şeyx əl-Mahmudiyə (1412-1421) qarşı qaldırdığı qiyamı müdafiə edirdilər. Məmlük sultanı Hələbin və Suriyanın itiriməsi təhlükəsi qarşında idi. Buna görə də türkmanların bu hərəkətlərinə son qoymaq üçün Məmlük sultanı, 1417-ci ilin mart ayının 23-də üçüncü Suriya səfərinə çıxmış və bu yürüş dövründə fərman verərək

hürufilərin rəhbəri Nəsiminin edam olunmasını əmr etmişdi. Nəsimi 1417-ci ildə Hələb şəhərində edam edilmişdi (Ağalarlı, 2017: 97; Yinanç, 1989: 42).

Nəsiminin siyasi baxımdan qətlə yetirilməsi məsələsinə toxunan Qəzənfər Paşayev özünün "Nəsiminin həyatına dair bəzi məqqamlar haqqında" məqaləsində yazır ki, "Sultan Müəyyəd, güman Türkiyənin sərhəddində olan Hələbdə Nəsiminin türkmanları ona qarşı qaldıracağından çəkinib. Onun Nəsimini aradan götürməyə rəvac verməsi bəlkə də bu xofla bağlı olmuşdur. Çünki sultan Müəyyədin əmrindən göründüyü kimi, Nəsimi dinə qarşı təqsirli bilinərək öldürülməyib" (Paşayev, 2017: 54). Suriyalı tədqiqatçı Bəkir ən-Nasir və başqa müəlliflərin tədqiqatlarına istinad edən Q.Paşayev daha sonra yazr ki, ö dövrün ərəb tarixçiləri Nəsiminin məhkəməsinə dair qiymətlli materiallar ortaya qoymuşdur. Məsələn, onlardan biri olan Məhəmməd Rağib Mahmud bin Haşim ət-Təbbah göstərir ki, "Bəzi ağılsızlar Nəsimini dönük, zındıq və mülhid adlandırıdılar. Onları kimsə yoldan çıxarmışdı" (Paşayev, 2017: 53).

O zamankı məlumatlardan o da bəlli olur ki, şairin məhkəməsi Hələbin şeyxi, naibi və qazılar qazısının və rəsmi sayılan məzhəblərin (hənəfilik, malikilik, şafilik, hənbəlilik) dördünün də nümayəndələrinin iştirakı ilə keçirilib. Məclisdə əyləşən din xadimləri olan qazı və digər din alimləri fətva ilə tanışlıqdan sonra onu qəbul etməyiblər (Bünyadov, 1980: 6; Paşayev, 2017: 53). Nəsiminin siyasi motivlə bağlı qətlə yetirilməsini sübut edən ərəb tarixçilərindən biri də Abbas Əzzavidir. O, özünün "Tarix-İraq beynə ixtilaleyn" (Bağdad, 1973) əsərində Nəsiminin şəxsiyyəti, fikir tarixində yeri və s. ilə bağlı yazmışdır: "Nəsiminin təhlükəsi artmışdı, səsi ucalmış, ona uyanlar çoxalmışdı. Təriqətinin genişlənməsi qorxusu aləmi bürümüşdü. Şairlik gücü ilə təbliğat aparması, mühakimə olunmasına yol açmışdı. Aşqın və daşqın sözləri ilə İslam etiqadını cığırından çıxardığı anlaşılırdı. Gözəl bədii üslubu ilə dinləyiciləri sarsıdırdı. O, yaman cəsur idi" (Paşayev, 2017: 54). Göründüyü kimi, Nəsimi öz məqsədi uğrunda şəhid olmuşdu. Onun artan gücü Misir Məmlükləri üçün böyük təhlükə idi. Minlərlə müridi onun əmrinə hazır idilər. Düzdü, onun qətlindən sonra da hürufilər fəaliyyət göstərdilər, bəzi hökmdarları özlərinin təriqətinə cəlb edə bildilər, amma sonda ruhanilərin təhriki ilə müxtəlif təzyiqlərə məruz qaldılar. Buna misal olaraq onların Azərbaycan Qaraqoyunlu dövlətinin Cahanşah Həqiqi dönəmində və Osmanlı dövlətinin Məhəmməd Fateh zamanında fəaliyyətlərini göstərmək kifayətdir. Onların fəaliyyətləri İslam ruhaniləri tərəfindən kəskin şəkilədə qarşılanırdı. Ruhanilər onları sıradan çıxarmaq üçün Allahsızlıqda ittiham edirdilər. Bu da onlar haqqında edam fətvalarının verilməsinə gətirb çıxarırdı. Cahanşah Həqiqinin həyat fəaliyyətinin öyrənilməsi onu sübut edir ki, bu insan hürufi təriqətnə bağlı idi. Belə olan halda, onun zamanında demək, hürufilər artıq hakimiyyəti

əla bilmişdilər. Amma onu saxlamaq mümkün olmadı. Çünki Cahan şah Həqiqiyə qarşı müxalifətdə duran ruhanilər onları sıradan çıxarmaq üçün bütün vasitələrə əl atdılar. Hürufilərin Qaraqoyunlu dövlətində bu dərəcədə güclənməsi Cahan şah Həqiqini hakimiyəti itirmək təhlükəsi ilə də üzəşdirə bilərdi. Buna görə də Cahan şah Həqiqi siyasətini dəyişməyə məcbur oldu. Bu da hürufilərin təqibi ilə nəticələndi və nəticədə 500-ə qədər hürufi qətlə yetirildi.

## Sonuç

Hürufilər atdıqları bütün addımlarda ədalətə söykənən bir cəmiyyət qurub, onu Tanrı qaydaları ilə idarə etmək istəyirdilər. Bu idarəçilik Türk düşüncə sistemindən gələn İnsan-Kainat anlayışı idi. Bu Türklərin dünya haqqında düşündükləri Tanrıçlıqdan irəli gəlirdi. Bu düşüncə sistemi zaman-zaman ötürülərək orta əsrlərə qədər gəlib çıxmış, İslam dinində də əksini tapmış və orta əsrlərdə Azərbaycanda yaranan təriqətlərin də ana xəttini təşkil etmişdir. Bu təriqətlər içərisində Səfəviyyə təriqəti xüsusilə də seçilirdi. Şah İsmayıl Xətayi də öz deyimlərində tez-tez Həllac Mənsura və Nəsimiyə müraciətlər edərək, özünü onların tutduqları yolun yolçusu kimi təqdim edir. Hürufilər Səfəviyyə və Bəkataşilik təriqətləri sistemində özlərini çox rahat hiss edirdilər. Sonradan Səfəviliyin bazasında yaradılan Qızılbaşlıq ideologiyası özündə hürufiləri də birləşdirdi. Yaranan Azərbaycan Səfəvi dövləti ilk dövrlərdə Azərbaycanda olan əksəriyyət sufi təriqətlərinin maraqlarını tam təmin edirdi. Bu mənada hürufilər Şah İsmayıl Xətayinin hakimiyyəti zamanında öz arzularına yetişə bildilər.



## Informative Abstract

### Concerning the Statism [State-Building] Views of the Hurufi (Late XIV. Early XV. Centuries)

The subject of the article is the statism of the Hurufis, that is, their views on establishing a state. The subject reflects the political views of the Hurufi. Having become a great political power in the East in the 14st century, the Hurufis dreamed of establishing a society based on the God system. It was possible to realize this desire with the political leaders of the period. Fazlullah Naimi's relations with the rulers of that period, especially with Emir Timur, were of great interest. Although there is no evidence in the sources that the Hurufi declared that they intended to establish a state, their activities show that they actually aimed at this goal.

While the line of Hurufism is discussed in the article, the subject is discussed within the framework of statism and state views in political terms. Here, the approach of political forces to Hurufism is also examined. It has been concluded that this approach is political in the article. Political app-

roach against Hurufism during the Seljuk period in Anatolia and primarily in Azerbaijan, and the state view of Hurufism, which influenced its formation, have been examined.

The study of the role of religions in the state of Azerbaijan in the Middle Ages is a new stage in historical science and is related to today's realities. This area, which has not received much attention until now, played an important role in the medieval state. Looking at the issue of Sufism's participation in the state, it is clear that Sufism has been directly involved in state affairs in the Eastern world since the 11th century. Since the 11th century, Sufism has spread throughout the Muslim world, despite official Islam's brutal struggle against it. During this period, Sufism went beyond the intellectual layers of society and became the ideology of the masses. That is why the 11th century was a turning point in Islamic history. During this period, the reputation of Sufi sheikhs and pirs in society increased significantly. Their powers exceeded that of the sultans. They also played a special role in the emergence of the Seljuks. The Seljuks trusted them and used this to gain the trust of the people. Seljuks had great respect for Sufi sheikhs and pirs. As a result, the leaders of Sufi orders in the 12th century became the ideological foundation of the Seljuks. The thirteenth century is a period of great excitement and change in history. In 1258, the Mongol armies defeated the Muslim states in Central Asia and captured Baghdad. Most of the people have fled from the disaster areas to quiet places. The 14th century was a period of great development and culture for the Turks. The situation changed with the abolition of the Abbasid caliphate (750-1258). During these years, Turks advanced in Anatolia, Rumelia, Azerbaijan, today's Iranian lands, Kipchak lands, the Caspian Sea coast, in all countries from India to China. While the Turkish armies were victorious one after another, the Turkish intellectuals were working hard to eliminate backwardness. At that time, there was a great reform in the world of religion.

Spreading over a wide Turkmen geography, the main center of the Hurufi was Azerbaijan. The main religious ideological line on which the Hurufis relied was belief in Ahl al-Bayt. The problem of Mahdi to be interpreted in the same context. Based on Quran's ayats and following the way of Ahl al-Bayt, they tried to establish a society based on the principles of justice. Such activities were conducted after the execution of Fazlullah Naimi as well. This period was already linked to the name of Imadaddin Nasimi. Nasimi became the murshid of the Hurufis in this period, and thousands of followers gathered around him being ready to die for the path he followed. Nasimi's activities had more political motivation. The goal was to establish a state where the Hurufis' dreams would come true. However, this aspiration cost him his life. However, the ulama could not give a fatwa

for his execution, because they could not reveal any evidence that religious problems were distorted by him. The execution was a political issue.

The Hurufis tried in all their endeavors to establish a society based on justice and to rule it according to God's rules. This rule was the Human Universe concept from the Turkish thought system. This was due to the theology the Turks thought of the world. This system of thought was overthrown from time to time and reached the Middle Ages, reflected in Islam and formed the main line of the sects that emerged in Azerbaijan in the Middle Ages. Among these sects, the Safavid sect came to the fore especially. Shah Ismail Khatayi often refers to Hallajı Mansur and Nasimi in his testimony and presents himself as a traveler on the road they follow. The Hurufi felt very comfortable in the system of the Safavid and Bekataşi sects. Later, the Kızılbash ideology, which was created on the basis of Safevism, also included letters. The rising Safavid state in Azerbaijan initially fully met the interests of most Sufi sects in Azerbaijan. In this sense, the Hurufis managed to achieve their dreams during the time of Shah Ismail Hatayi.

***Keywords:*** *East, Azerbaijan, Amir Teymur, Naimi, Nasimi, hurufi.*



## Qaynaqlar

Ağalarlı Mübariz: (2017). XIV əsrin sonu-XV əsrin əvvəllərində Yaxın və Orta Şərqin siyasi tarixində hürufiliyin rolu. AMEA-nın müxbir üzvü, Əməkdar Elm xadimi, professor R.Azadənin xatirəsinə ithaf olunmuş III Beynəlxalq Elmi Konfransın materialları. 23-24 iyun.

Aksu, Hüsamettin (1998). "Hurûfîlik", *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi*, Cilt: 18, s.408-412.

Aqadjanov S.Q.: (1991). *Qosudarstvo Seldjukidov i Srednyaya Aziya v XI-XII vv*. Moskva: Nauka., (rus dilində).

Araslı Həmid: (1942). *Fədakar şair*. Bakı: EAAaF nəşr.

Araslı Həmid: (1998)."Kitabi-Dədə Qorqud" // *Azərbaycan ədəbiyyatı: tarixi və problemləri*. Bakı: Gənclik.

Araslı Həmid: (1972). *İmadədin Nəsimi*. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

Bünyadov Ziya: (1980). *Nəsimi'nin məhkəməsi və qətli.* "Ədəbiyyat və İncəsənət" qəzeti, 19 sentyabr.

İmadəddin Nəsimi: (1973). *Sirlər dəryası*. Bakı: Gənclik.

Doktor Yəqub Ajənd: (1369). *Hurufiyye dər tarix*. Tehran: Nəşri Ney.

Efendiev O.A: (1961). *Obrazovaniye azerbaydjanskoqo qosudarstva Sefevidov v naçale XVI v*. Baku: Elm, (rus dilində).

Fazlullah ibn Ruzbihan: (1987). *Tarih-i alam-ara-yi amini. Perevod s anqliyskoqo na russkiy T.A.Minorskoqo*. Baku: Elm, 1987, (rus dilində).

Kuli-zade Z.A.: (1970). *Hurufizm i eqo predstaviteli v Azerbaydjane*. Baku: Elm, (rus dilində).

Qasımov Xeyirbəy: (2008). *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*. Bakı: Aspoliqraf.

Melikoff İrene: (1998). *Hacı Bektaş Efsaneden Gerçeğe*. İstanbul: Cağaloğlu.

Melikoff İrene: (1993). *Uyur İdik Uyardılar. Alevilik-Bektaşilik Araştırmaları*. İstanbul: Cem Yayın Evi.

Paşayev, Qəzənfər. (2017). *Ədəbi estafetlərdə keçən ömür*. Bakı: "Təhsil" nəşriyyatı.

Petruşevskiy İ.P: (1970). *K istorii mazdakitov v epoxu qospodstva islama. Jurnal "Narodı Azii i Afriki". İzdatelstvo "Nauka"*, Moskva, Москва, №5. c.71-81, (rus dilində).

Petruşevskiy İ.P: (1949). *Azerbaydjan v XV v. Sbornik statey po istorii Azerbaydjana*. Baku: Vıpusk I. (rus dilində).

Petruşevskiy İ.P: (1966). *İslam v İrane (VII-XV vv.)*. Leningrad: İzd. LQU (rus dilində).

Şıxıyeva, Səadət. (2018). "Hürufiliyin tarixi: ənənəviləşmiş təhriflər, unudulmuş gerçəklər", *"Metafizika" jurnalı*, Cild: 1, Say: 2, s.65-96.

Şıxıyeva, Səadət. (2019). *Nəsiminin lirikası: irfani mündəricə və poetik zinətlər*. Bakı: "Elm və təhsil" nəşriyyatı.

Usluer, Fatih. (2009). "Hurûfî Şifreleri", *Türklük Bilgisi Araştırmaları*, Cilt: 33, Sayı: 2, s.201-219.